# PİLLƏLƏR



*Bütün güllərin ətri sozalır, kitabdan gələn mədəniyyət ətrisə heç zaman...*

*Sıfır öz ekizindən savayı, hansı rəqəmin yanında dayanırsa, kim olduğunu bilir...*

*Sözünə "bilirsiniz"lə başlayanlar, əslində "bilmirsiniz" demək istəyir...*

*Alim dünya ilə danışır, Şair dünyanı danışdırır...*

*Düz yolla gedəndə də dörd yol ayrıcındasan...*

*İndini keçmişlə doldursan, gələcəyinə yer qalmaz...*

*Pis təhsil görmüş xalq, heç təhsil görməmiş xalqdan daha xatalıdır.*

***Rahid Ulusel***

***Narın düşüncələr"dən...***

# MÜŞFİQ - TƏSVİRİ SƏNƏTİMİZDƏ

*(İkinci yazı)*

Xəzan acısına edib təhəmmül
Gülün kölgəsində ötəndə bülbül
Həyat, həyat! - deyə çırpınır könül
Könüldən, sevdadan necə əl çəkim?

Cəmi 29 il ömür sürmüş, lakin xalqımızın qəlbində və yaddaşında əbədi yaşar şairimiz Mikayıl Müşfiqin zəngin ədəbi irsi ədəbiyyatımızın inciləri sırasına daxildir.

Azərbaycanın bir çox dəyərli ziyalılarına faciəvi son hazırlayan, xalqımızın yaşadığı ən ağır tarıixi məqamlardan biri sayılan 1937-ci il repressiyasının qara kölgəsi Mikayıl Müşfiqdən də yan keçmədi. Bu repressiya ziyalılarımızın həyatına son qoymaqla yanaşı, xalqımızın milli ruhuna, milli şüuruna hədəflənmiş silah idi. Hələ ömrünün bahar çağında olan, yaradıcılığının zirvəsinə yetişməmiş gənc şairimizin faciəvi taleyi onu millətin qəlbinə əbədi həkk elədi. Bəlkə də, elə bu səbəbdən Mikayıl Müşfiqi yaddaşlarda əbədiləşdirmək istəyən bir çox rəssam və heykəltəraşlarımız öz əsərlərində Şairin obrazını yaratmışlar. Azərbaycanın tanınmış rəssam və heykəltəraşlarındanTamilla Seyidova, Münəvvər Rzayeva, Hacıağa Nəzərov, Hüseyn Əliyev, Altay Hacıyev, Həmid Qasımov, Yusif Hüseynov, Oqtay Sadıqzadə, Elmira Şahtaxtinskaya, Hüseyn Kərimov və başqalarının müxtəlif zamanda yaratdıqları kompozisiyalarda şairin obrazı öz əksini tapıbdır. Yuxarıda adları qeyd olunan bu rəssamların dahi şairə həsr etdikləri tematik tablo və portretlər müxtəlif janrda, müxtəlif səpkidədir.

Əməkdar rəssam Tamilla Seyidova hələ 1963-cü ildə diplom işi kimi Müşfiqə həsr etdiyi "Şairin heykəli" adlı kompozisiyasını yaratmışdı. Qeyd edək ki, həmin heykəl M.Müşfiqə həsr olunmuş ilk heykəl olmaqla, həm də heykəltəraşın ilk iri ölçülü əsəridir. Əsər ilk dəfə elə yarandığı il Azərbaycan Rəssamlarının sərgisində nümayiş etdirilmiş və çox böyük marağa səbəb olmuşdu. Dəyərli sənətşünas Mürsəl Nəcəfov əsərə münasibət bildirərək belə yazmışdı: "Yaradıcılıq yoluna yenicə qədəm qoymuş heykəltəraş Tamilla Seyidova sevimli şairimiz Müşfiqin cavanlıq çağlarını inandırıcı şəkildə əks etdirən bir heykəl-kompozisiya ilə çıxış edir. Gənc istedadın ilk sərbəst işi haqlı olaraq tamaşaçı rəğbətini qazanmış oldu"...

Heykəltəraş Tamilla Seyidova müsahibələrinin birində belə deyirdi: "Canını öz vətəninə, öz torpağına fəda edən insanların obrazları məni hər zaman daha çox özünə cəlb edib. Böyük Şairimiz Mikayıl Müşfiq mənim qəlbimdə, mənim duyğularımda ən yüksək, ən sevimli bir şair kimi yaşamaqdadır". →